22 (1277) 8-14 iyun 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## RƏCƏB TAYYİB ƏRDOĞAN: "GÜN BİR OLMAQ, BƏRABƏR OLMAQ, MİN İLLİK QARDAŞLIĞIMIZI DAHA DA MÖHKƏMLƏNDİRMƏK GÜNÜDÜR"



İyunun 3-də Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın səlahiyyətlərinin icrasına başlaması mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Rəcəb Tayyib Ərdoğan çıxış edərək yenidən Prezident vəzifəsinə seçilməsi üçün ona etimad göstərən seçicilərə minnətdarlığını bildirib. Mayın 28-də keçirilmiş seçkilərdə millətin iradəsinin əksini tapdığını, "Türkiyə yüzilliyi"-nin başladığını və ölkənin sıçrayış mərhələsinin qapılarının açıldığını vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan siyasi və dini baxışlarından, etnik mənsubiyyətindən asılı olmayaraq, 85 milyonluq əhalinin etimadını boşa çıxarmamaq üçün səylə çalışacaqlarını qeyd edib. Türkiyə Respublikasının yaradılmasının 100-cü ildönümündə sarsılmaz həmrəyliyə daha böyük ehtiyac duyulduğunu diqqətə çatdıran dövlət başçısı bu gün elan olunacaq yeni hökumətlə birlikdə "Türkiyə yüzilliyi" istiqamətində səylə çalışacaqlarını bildirərək deyib: **"Gün bir olmaq, bərabər olmaq, min illik qardaşlığımızı daha da möhkəmləndirmək günüdür. Gün övladlarımızın aydın sabahlarına sahib çıxmaq günüdür... Birlikdə "Türkiyə yüzilliyi"nin inşası üçün çiyin-çiyinə çalışmalıyıq".** Türkiyə demokratiyasının bütün azadlıqların əksini tapdığı, mütərəqqi və əhatəli Konstitusiya ilə gücləndiriləcəyini qeyd edən Rəcəb Tayyib Ərdoğan növbəti beş il ərzində Türkiyə Respublikasının şanını və şərəfini qorumaq, etibarını artırmaq və adını dünyada daha da ucaltmaq üçün var gücü ilə çalışacaqlarını vurğulayıb.

## "BİZ MÜNASİBƏTLƏRİN NORMALLAŞDIRILMASI İSTİQAMƏTİNDƏ BÜTÜN MÜSBƏT SƏYLƏRİ DƏSTƏKLƏMƏK NİYYƏTİNDƏYİK"



Bunu Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel iyunun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan, Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts və Fransa Respublikasının Prezidenti Emmanuel Makron arasında keçirilmiş qeyri-rəsmi görüşün yekunlarına dair mətbuata açıqlamasında deyib.

O,bildirib: Biz indicə Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan, Fransa Prezidenti Emmanuel Makron və Almaniya Kansleri Olaf Şolts ilə çox yaxşı görüş keçirdik. Bizim may ayında Brüsseldə müzakirə etdiyimiz məsələləri nəzərdən keçirmək, əlaqələndirmə, təhlükəsizlik, sərhədlərin delimitasiyası, sülh sazişi ilə bağlı müzakirə aparmaq imkanımız oldu. Bu görüş iyulun 21-də Brüsseldə keçiriləcək növbəti toplantıya çox yaxşı hazırlıq oldu. Bu o deməkdir ki, biz çox gərgin çalışırıq. Biz Avropa İttifaqı tərəfindən münasibətlərin normallaşdırılması istiqamətində daha çox irəliləyişə nail olmağa yardım etmək üçün əlimizdən gələni edəcəyik.

## KİŞİNEUDA "AVROPA SİYASİ BİRLİYİ" 2-Cİ ZİRVƏ TOPLANTISI KEÇİRİLİB

İyunun 1-də Moldovanın paytaxtı Kişineuda "Avropa siyasi birliyi" 2-ci Zirvə toplantısının açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Paytaxt Kişineudan 35 kilometr məsafədə yerləşən Bulboaka kəndində keçirilən builki Zirvə toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak ediblər.

Sammitdə liderlər sülh və təhlükəsizliyin təmin edilməsi, enerji təhlükəsizliyinin və Avropada ölkələrarası əlaqələrin gücləndirilməsi mövzularında müzakirələr aparıblar.



## KİŞİNEUDA AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN GÖRÜŞÜ OLUB



İyunun 1-də Moldovanın paytaxtı Kişineuda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü olub.

Görüşdə Azərbaycan ilə Ukrayna arasında ikitərəfli əlaqələr ətrafında fikir mübadiləsi aparılıb, Prezident İlham Əliyevin 2022-ci ilin yanvarında Ukraynaya səfəri və səfər zamanı keçirilmiş müzakirələr qeyd edilib. Azərbaycan ilə Ukrayna arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olunub

Prezident Volodimir Zelenski Azərbaycanın Ukraynaya humanitar yardımlarına, ukraynalı uşaqlara göstərilən qayğıya və onların Azərbaycana səfərlərinin təşkil olunmasına görə təşəkkürünü bildirdi və bunun çox yüksək qiymətləndirildiyini deyib.

* * * *

İyunun 1-də Moldovanın paytaxtı Kişineuda "Avropa siyasi birliyi"nin 2-ci Zirvə toplantısı çərçivəsində enerji təhlükəsizliyi məsələsinə həsr edilmiş dəyirmi masa keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

## KƏND TƏSƏRRÜFATI NAZİRLİYİNİN BAKIDA YENİ İNZİBATİ BİNASI İSTİFADƏYƏ VERİLİB




Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Bakıda yeni inzibati binası istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib. Kənd təsərrüfatı naziri Məcnun Məmmədov bina barədə dövlətimizin başçısına məlumat verib.

Bildirilib ki, yeni binanın tikintisinə 2017-ci ildə başlanılıb və bu ilin iyun ayında başa çatdırılıb. Müasir memarlıq üslubuna uyğun inşa olunan bina nazirliyin aparatı ilə yanaşı, Aqrar Kredit və İnkişaf Agentliyi, Aqrar Tədqiqatlar Mərkəzi, Aqrar İnnovasiya Mərkəzi və Aqrar İnkişaf Könüllüləri olmaqla 500-ə yaxın əməkdaşın fəaliyyəti üçün nəzərdə tutulub.

Üç hissədən ibarət olan kompozisiyanın rəmzi motivi Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyini əks etdirir.

# Milli Məclis 2023-cü ilin dövlət büdcəsi haqqında Qanuna dəyişiklikləri birinci oxunuşda təsdiqləyib

Milli Məclis Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndinə əsasən "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Qanuna dəyişiklikləri birinci oxunuşda təsdiqləyib.



Bununla bağlı qanun layihəsi Milli Məclisin iyunun 6-da keçirilən növbədənkənar iclasının gündəliyinə daxil edilib.

Qanun layihəsinə əsasən Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin gəlirləri 33 milyard 779 milyon 500 min manat, xərcləri 36 milyard 568 milyon 800 min manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 33 milyard 14 milyon 798 min manat, yerli gəlirləri 764 milyon 702 min manat, mərkəzləşdirilmiş xərcləri 35 milyard 791 milyon 792 min manat, yerli xərcləri 777 milyon 8 min manat) məbləğində təsdiq edilir.

Büdcəyə dəyişikliklər "Büdcə sistemi haqqında" Qanunda dövlət büdcəsinin gəlirləri və xərcləri arasında tarazlığın təmin olunması, onun tərtibinin və icrasının, həmçinin gəlir və xərclərin məbləğinin dəyişdirilməsi zərurətindən yaranıb.

Dəyişikliklər il ərzində ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin gücləndirilməsi, Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası və digər məsələləri özündə ehtiva edir.

2023-cü ilin dövlət büdcəsinə dəyişikliklərlə bağlı qanun layihəsi hədəflər gözlənilməklə tərtib olunub.

Yenidən baxılmış 2023-cü il dövlət büdcəsinin xərclərinin strukturuna daxil olan cari xərclərə ümumi xərclərin 60,3 faizi və ya 22 milyard 39,3 milyon manat, əsaslı xərclərə ümumi xərclərin 36,5 faizi və ya 13 milyard 347 milyon manat, dövlət borcuna xidmətlə bağlı xərclərə ümumi xərclərin 3,2 faizi və ya 1 milyard 182,5 milyon manat vəsait yönəldiləcək.

Qanun layihəsi müzakirələrdən sonra səsverməyə qoyularaq birinci oxunuşda qəbul edilib.

## "Bu ilin dövlət büdcəsinə dəyişikliklər hədəflərimizin yerinə yetirilməsinə yönəldilib"



"Ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin gücləndirilməsi üçün əlavə 1 milyard 105 milyon manat vəsait tələb olunur. Yəni, ölkənin müdafiə və təhlükəsizliyi məsələləri üzrə xərclər büdcədə 6 milyard 54 milyon 844 min 623 manat təşkil edəcək. Artımdan sonra xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclərin çəkisi 3 milyard 70 milyon manat olacaq".

Bunu maliyyə naziri Samir Şərifov parlamentin iyunun 6-da keçirilən növbədənkənar sessiyasının ilk iclasında, 2023-cü il üçün büdcəyə dəyişikliklərlə bağlı qanun layihəsinin müzakirəsi zamanı deyib.

Maliyyə naziri bildirib ki, digər əlavə maliyyə təyinatı beynəlxalq münasibətlər və digər beynəlxalq fəaliyyətlə bağlı vəzifələrin icrasına yönəldiləcək. Bunun üçün dövlət büdcəsindən 795,9 milyon manat həcmində əlavə maliyyə təminatının yaradılması zəruri hesab edilir.

Samir Şərifov diqqətə çatdırıb ki, 2023-cü ilin dövlət büdcəsinə gəlirlərin 14 milyard 932 milyon manatı Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmaların, 5 milyard 728 milyon manatı Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların, 11 milyard 737,7 milyon manatı Dövlət Neft Fondundan transfertin, 801 milyon manatı büdcə təşkilatlarının büdcədənkənar gəlirləri üzrə daxilolmaların, 580,8 milyon manatı digər gəlirlərin payına düşür.

## Milli Məclis ötən il üzrə dövlət büdcəsinin icrası ilə bağlı qanun layihəsini ikinci oxunuşda qəbul edib

"Büdcə sistemi haqqında" Qanunun 20.2-1-ci maddəsinə əsasən hazırlanan "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi ikinci oxunuşda təsdiqlənib.




Qanun layihəsinə əsasən, 2022-ci il dövlət büdcəsinin icrası üzrə gəlirlər 30 milyard 679 milyon 646,4 min manat, xərclər isə 32 milyard 64 milyon 568 min manat məbləğində olmaqla təsdiq edilir.

AZƏRTAC xəbər verir ki, bununla bağlı məsələ Milli Məclisin iyunun 6-da keçirilən növbədənkənar iclasının gündəliyində ikinci oxunuşda müzakirəyə çıxarılıb.

Sənədə əsasən 2022-ci il dövlət büdcəsinin gəlirləri 29 milyard 197,8 milyon manat proqnoza qarşı 30 milyard 679,6 milyon manat təşkil edib. Beləliklə, gəlirlər proqnozdan 1 milyard 481 milyon manat artıq icra olunub. Bu da 2021-ci illə müqayisədə 4 milyard 283,4 milyon manat (16,2 faiz) çoxdur.

2022-ci il dövlət büdcəsinin xərcləri 32 milyard 64,6 milyon manat təşkil edib ki, bu da təsdiq olunmuş proqnoza qarşı 0,7 faiz azdır.

Müvafiq olaraq dövlət büdcəsinin kəsiri 1 milyard 385 milyon manat və ya təsdiq olunmuş proqnozla müqayisədə 55,4 faiz az olub.

2022-ci ildə ilk dəfə olaraq Azərbaycanda ümumi daxili məhsulun (ÜDM) həcmi 100 milyard manatı ötərək, 133,8 milyard manat təşkil edib.

Büdcə xərcləri 99,3 faiz həcmində icra olunub və dövlət büdcəsi gəlirlərinin ÜDM-də xüsusi çəkisi 22,9 faiz təşkil edib.

Qanun layihəsinə görə 2023-cü il yanvarın 1-nə vahid xəzinə hesabının sərbəst qalığı 860 milyon 367 min 727 manat müəyyənləşdirilir. 2022-ci il dövlət büdcəsinin icrası nəticəsində həmin ilin sonuna dövlət büdcəsinin vahid xəzinə hesabında yaranan qalıq "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 19.5-ci maddəsinə uyğun olaraq istifadə edilir.

Qanun layihəsi müzakirələrdən sonra səsverməyə qoyularaq ikinci oxunuşda qəbul edilib.

## "İşğaldan azad olunmuş ərazilərin bərpası üçün cari ilin dövlət büdcəsində nəzərdə tutulan məbləğ açıqlanıb"

"Yüzillik yubileyini qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyevin arzusu reallaşıb. Qarabağ işğaldan azad olunub. Ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi və dövlət sərhədlərinin müəyyən edilməsi məsələsini həyata keçirən Prezident İlham Əliyev yeni hədəflər uğrunda səylərini davam etdirir. Qarşıda dayanan əsas vəzifə sülh sazişinin imzalanması və Böyük Qayıdış Dövlət Proqramının tam şəkildə həyata keçirilməsidir".

Bunu maliyyə naziri Samir Şərifov Milli Məclisin iyunun 6-da keçirilən iclasında deyib.

O bildirib ki, cari ilin dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 3 milyard manat vəsait nəzərdə tutulmuşdu.

Böyük Qayıdışa dair I Dövlət Proqramı ilə qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi 2 milyard 260 milyon manat əlavə vəsaitin cəlb edilməsinə zərurət yaradıb. Artımdan sonra bu xərc 5 milyard 260 milyon manat məbləğində olacaq.

## Yolda sürət həddini aşmaya görə cərimələrin artırılmasına dair layihə ilk oxunuşdan keçib

Bununla bağlı Milli Məclisdə İnzibati Xətalar Məcəlləsinə dəyişiklik layihəsi I oxunuşda müzakirəyə çıxarılıb.

Belə ki, yolda müəyyən edilmiş hərəkət sürətini 41-60 km/saat həddində aşmağa görə 200 manat məbləğində cərimə tətbiq olunacaq. Digər bir dəyişikliklə isə yolda müəyyən edilmiş hərəkət sürətini 61 km/saat və daha artıq aşmağa görə 300 manat məbləğində cərimə tətbiq olunacaq.

Məcəllənin hazırkı variantı aşağıdakı kimidir: Yolda müəyyən edilmiş hərəkət sürətini 41-60 km/saat həddində aşmağa görə 150 manat məbləğində cərimə edilir. Yolda müəyyən edilmiş hərəkət sürətini 61 km/saat və daha artıq aşmağa görə 250 manat məbləğində cərimə edilir.

Dəyişiklik layihəsi səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.

## İşsizlikdən sığorta fondunun büdcəsinə dəyişikliklər I oxunuşda təsdiqlənib

Milli Məclisin iyunun 6-da keçirilən plenar iclasında "İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" qanuna dəyişiklik layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb. Layihəni parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev təqdim edib.



İşsizlikdən sığorta fondunun (İSF) dürüstləşdirilmiş büdcəsində gəlir və xərclərin 5 milyon manat artırılaraq 212.7 milyon manatdan 217.7 milyon manata çatdırılması nəzərdə tutulub. Büdcə gəlirlərinin 5 milyon manatlıq artımı İşsizlikdən sığorta fondunun 2022-ci ilin sonuna istifadə olunmamış vəsaiti hesabına təmin ediləcək. İSF-nin büdcə xərclərinin haqqı ödənilən ictimai işlərin təşkili, sosial müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsi Dövlət Məşğulluq Agentliyinin strukturunun saxlanma xərcləri istiqamətində artımların olması nəzərdə tutulur. Müzakirələrdən sonra dəyişiklik layihəsi səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.

## DSMF-nin 2023-cü il büdcəsinə dəyişiklik layihəsi ilk oxunuşda qəbul edilib

Milli Məclisin (MM) iyunun 6-da keçirilən plenar iclasında "Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi haqqında" qanuna dəyişiklik layihəsi müzakirə edilərək I oxunuşda qəbul olunub.



Sənədi Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev təqdim edib.

Daha sonra qanuna dəyişiklik layihəsi barədə deputatlar çıxış ediblər. Sonda sənəd səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.

## Dünya Bankı Azərbaycanın ÜDM artımı ilə bağlı proqnozunu yeniləyib

Dünya Bankına görə, bu il Azərbaycanda iqtisadiyyatın artımı 2.2% təşkil edəcək. Bu isə Dünya Bankının 2023-cü ilin yanvar proqnozu ilə müqayisədə 0.6% azdır.

Bu barədə Dünya Bankının qlobal iqtisadiyyata dair hesabatında bildirilib.

Dünya Bankı həmçinin, 2024-cü ildə Azərbaycan iqtisadiyyatının ötən proqnoza nisbətən 0.1% az, yəni 2.5%, 2025-ci ildə isə 2.6% artacağını müəyyən edib.



# Чехия стремится получить доступ к газу из Азербайджана



Чехия с нетерпением ожидает развития сотрудничества в железнодорожной сфере с Азербайджаном.
Об этом в эксклюзивном интервью Trend сказал министр промышленности и торговли Чехии Йозеф Сикела.
“Строительство азербайджанской части железной дороги Баку-Тбилиси-Карс стало пиком участия чешских компаний в этом проекте. В проекте участвовало около 10 компаний из Чешской Республики. Это был значительный по объему проект для наших экономик. И это хорошая база для развития подобных проектов в будущем”, - сказал он.
Как отметил министр, в целом объем бизнеса между двумя странами за последние годы значительно увеличился. “Наблюдался огромный рост экспорта из Азербайджана в Чехию – на 145 процентов. Чешский экспорт в Азербайджан был несколько ниже – увеличившись примерно на 50 процентов. На наших встречах с министром экономики и министром энергетики Азербайджана мы договорились, что мы - страны-единомышленники, разделяем схожие ценности и хотим продолжать расширять взаимные деловые связи", - добавил Йозеф Сикела.
По словам министра, Чехия также стремится заключить среднесрочные и долгосрочные соглашения с Государственной нефтяной компанией Азербайджана (SOCAR) о поставках газа из Азербайджана.

# Парламент Азербайджана принял во II чтении проект об исполнении госбюджета-2022

Законопроект «Об исполнении государственного бюджета Азербайджанской Республики на 2022 год» принят во втором чтении.
Законопроект обсуждался 6 июня на внеочередном заседании Милли Меджлиса (парламент). Отметим, что доходы государственного бюджета Азербайджанской Республики на 2022 год составили 30 679 646,4 тыс. манатов, расходы - 32 64 568,0 тыс. манатов.

# Министр финансов Азербайджана о параметрах госдолга

Иметь слишком большой государственный долг для нас неприемлемо. Об этом сказал в ходе обсуждений во втором чтении законопроекта «Об исполнении государственного бюджета Азербайджанской Республики на 2022 год» на сегодняшнем заседании Милли Меджлиса (парламент) министр финансов Самир Шарифов.
Он отметил, что у Азербайджана есть конкретные цели и стратегии по заимствованиям. «И сегодня мы осуществляем меры в соответствии с этой стратегией. Большинство кредитных рейтинговых агентств при предоставлении кредитов Азербайджану в первую очередь анализируют ситуацию с долгом», - сказал Шарифов.

# Выделяются дополнительные средства на проекты восстановления Карабаха и Восточного Зангезура



На расходы, связанные с ускорением строительных, восстановительных и работ по реконструкции, проводимых в Карабахе и Восточном Зангезуре, выделяются дополнительные средства в размере 2 миллиардов 260 миллионов манатов.
Согласно обновленному государственному бюджету на 2023 год, который обсуждается на сегодняшнем заседании Милли Меджлиса (парламент), после увеличения эти расходы составят 5 миллиардов 260 миллионов манатов.
В целом предлагается утвердить доходы государственного бюджета Азербайджанской Республики на 2023 год в размере 33 миллиардов 779 миллионов 500 тысяч манатов, расходы - 36 миллиардов 568 миллионов 800 тысяч манатов.

# В Нахчыване будет создан промышленный парк

Это отражено в "Государственной программе социально-экономического развития Нахчыванской АР на 2023-2027 годы“, утвержденной Президентом Азербайджанской Республики Ильхамом Алиевым.
Согласно документу, будет стимулироваться зарубежный экспорт промышленной продукции, производимой в парке, привлечена государственная поддержка и инвестиции в конкурентоспособные отрасли, способствующие увеличению экспортного потенциала, будет усилено обеспечение ресурсами и услугами в этой области посредством инноваций, а также государственно–частного партнерства.
В Нахчыване будут реализованы меры по поддержке производства продукции крупных предприятий как внутри страны, так и по расширению доступа на зарубежные рынки. Наряду с этим, будут расширены возможности создания производств на основе имеющихся природных ресурсов и сырьевой базы.

## В МИРЕ

# Всемирный банк повысил прогноз экономического роста Турции




Всемирный банк (ВБ) ожидает роста экономики Турции на 3,2 процента в 2023 году. Данный прогноз был повышен на 0,5 процента по сравнению с опубликованным в январе этого года. Таким образом, рост экономики Турции, по прогнозам, составит 4,3 процента в 2024 году и 4,1 процента в 2025 году.
В январском отчете ВБ прогнозировалось, что экономика Турции вырастет на 2,7 процента в 2023 году и на 4 процента в 2024 году.

# «Мы хотим войти в десятку сильнейших экономик мира»



Турция хочет войти в десятку сильнейших экономик мира.
Как передает Trend со ссылкой на TurkicWorld, об этом сказал Президент Турции Реджеп Тайип Эрдоган после первого заседания нового правительства. «Мы продолжим работать на благо Турции. Мы развиваемся и в то же время привержены нашим корням», - сказал он.

# Китай и США провели «продуктивные» переговоры



Высокопоставленные американские и китайские дипломаты провели «откровенные и продуктивные» переговоры в Пекине и договорились поддерживать открытые линии связи, чтобы избежать перерастания напряженности в конфликт.
Об этом сообщило Associated Press со ссылкой на заявления официальных лиц.
Согласно сообщению, помощник госсекретаря по делам Восточной Азии и Тихоокеанского региона Дэниел Критенбринк стал самым высокопоставленным американским чиновником, посетившим Китай после резкого роста напряженности между Вашингтоном и Пекином из-за китайского аэростата-шпиона, который сбили над территорией США в начале февраля.
Тогда госсекретарь США Энтони Блинкен отложил запланированную поездку в Китай.
МИД Китая заявил, что Критенбринк и заместитель министра иностранных дел Ма Чжаосюнь «провели откровенный и плодотворный разговор по улучшению китайско-американских отношений и надлежащему урегулированию разногласий».

# В Кремле сделали заявление по подрыву Каховской ГЭС. Ответ Киева



Президент Украины Владимир Зеленский опроверг заявления Кремля о том, что дамбу в Новой Каховке взорвала Украина.
«Уже больше года Россия контролирует и дамбу, и всю Каховскую ГЭС. Взорвать ее как-то извне (обстрелами) физически нереально. Она была заминирована. Заминирована именно русскими военными и взорвана ими», - заявил Зеленский.

* * *

Россия решительно отвергает обвинения в подрыве Каховской ГЭС. Об этом заявил пресс-секретарь президента России Дмитрий Песков.
«Президент России Владимир Путин получает доклады по линии Минобороны и других служб о том, что творится вокруг Каховской ГЭС. Здесь мы можем уже сейчас однозначно заявить, что речь идет о «преднамеренной диверсии украинской стороны», - сказал представитель Кремля.

# Украина срочно созывает Совбез ООН

Представители Украины в ООН призвали созвать экстренное заседание Совета Безопасности ООН из-за подрыва Каховской ГЭС. Об этом сообщает пресс-служба главы украинского государства.
"Участники заседания согласовали комплекс международных мероприятий, среди которых: созыв заседания Совета Безопасности ООН, обращение в международные природоохранные организации, в Международный криминальный суд, поскольку такие действия россиян содержат явные признаки нарушения Женевской конвенции", - говорится в сообщении.

# Иран никогда не получит ядерное оружие

США рассмотрят все варианты действий в отношении Ирана, призванные не допустить появления у него ядерного оружия, если Тегеран отвергнет дипломатические усилия, направленные на урегулирование его атомной проблемы. Об этом заявил госсекретарь США Энтони Блинкен. «Если Иран отвергнет путь дипломатии, то, как неоднократно заявлял президент США Джо Байден, рассматриваться будут все варианты действий, чтобы гарантировать, что Иран не получит ядерное оружие», - сказал глава американского внешнеполитического ведомства. Он выступил в Вашингтоне на заседании Американо-израильского комитета по общественным отношениям (AIPAC) - одной из ключевых организаций еврейского лобби США.

# AZƏRBAYCANDA TURİZM SƏNAYESİ: MÜASİR VƏZİYYƏTİ, PROBLEMLƏRİ VƏ PERSPEKTİVLƏRİ

*(əvvəli ötən sayımızda)*

***Hazırda 9 şəhərin bərpası və 300 kənd evinin tikilməsi ilə Qarabağda layihələr gerçəkləşdirilməkdədir. Burada Bəsitçay Dövlət Təbiət Qoruğunun yaradılması ilə əlaqədar infrastruktur obyektlərinin inşası və istismara verilməsi layihələrinin hazırlanması nəzərdə tutulmuşdur.*** Qabaqcıl xarici şirkətlərin iştirakı ilə Qarabağda həyata keçirilən layihələr uzunmüddətli perspektivdə vətəndaşlarımızın tezliklə doğma yerlərinə qayıdışını təmin edəcəkdir. Onu da qeyd edək ki, cari ilin dövlət büdcəsindən Qarabağda bərpa işlərinin həyata keçirilməsi məqsədilə 3 mlrd. manat vəsait ayrılmışdır. Qayıdışa dair Dövlət Proqramının icrası nəticəsində qarşıya qoyulan bərpa-quruculuq hədəflərinin əksəriyyətinə 2026-cı il daxil olmaqla nail olunacaqdır.

Milli turizm biznesinin ölkə ərazisində inkişaf etdirilməsi ilə əlaqədar görülən tədbirlərin həyata keçirilməsinə baxmayaraq, bu sferanın inkişafına mənfi təsir göstərən bir sıra problemlər aradan qaldırılmalıdır. Respublikada tanınmış otellərin uğurlu fəaliyyətinə baxmayaraq, buradakı mövcud qiymət və tariflər əlverişli həddə deyildir. Respublikada lüks şəraitli (VİP) nömrələrdə sutkalıq qiymət 1000-2000 manat arasında dəyişsə də, ABŞ, Birləşmiş Ərəb Əmirliyi, Şimali Kipr və Türkiyə kimi dövlətlərlə müqayisədə olduqca yüksəkdir. Bu səbəbdən turistlərin əksəriyyəti ölkəmizə istirahətdən çox səyahət etmək məqsədi ilə gəlirlər ki, bu da onların qısa müddətdə ölkəmizdə qalmaları ilə nəticələnir.

Turizmdə yaranan əsas problemlərdən biri gələn turistlərin turizm günlərinin sayının az olmasıdır. Ölkə ərazisində fəaliyyət göstərən turizm obyektləri ilin bütün fəsillərində davamlı xidmət göstərmirlər. Bu şirkətlərin il ərzində 2-3 ay fəaliyyət göstərməsi onların xərclərinin çoxalmasına səbəb olur. Belə olduğu təqdirdə isə turizm müəssisələrinin büdcəsinin xərcləri bir fəslin üzərinə düşür ki, bu da nəticədə qiymətlərin yüksəlməsinə səbəb olur.

Azərbaycanda turizm biznesinin davamlı inkişafına maneə törədən amillərdən biri də Xəzər dənizinin ekoloji baxımdan çirkləndirilməsindir. Dənizə tökülən çirkli suların təmizləyici qurğulardan keçərək, yenidən təmizlənməsi tədbirlərinin görülməsinə baxmayaraq, batmış və karroziyaya uğramış gəmilərin metal konstruksiyaları ekoloji təhlükə yaradır. Bununla yanaşı, dənizin dibində baş verən vulkanik püskürmələr də Xəzərin sularında ekoloji baxımdan təhlükə yaratmaqda davam edir. Qonşu dövlətlərin ərazilərindən, xüsusilə Rusiya Federasiyasından axıdılan çirkab sularının davamlı olaraq dənizə tökülməsi Xəzərin ekoloji baxımdan təmiz olmamasına səbəb olur. ***Xəzər dənizinin sularının təmizlənməsi ilə əlaqədar kompleks tədbirlərin görülməsi və yaranan ekoloji gərginliyin aradan qaldırılması şübhəsiz ki, çimərlik turizminin sürətlə inkişafına gətirib çıxara bilər.***

Turizm sənayesinin inkişafında nəzərə çarpan problemlərdən bir digəri bu sferada kadrların dünya standartlarının tələblərinə cavab verə bilməməsidir. Hazırda bu kadrların hazırlanması ilə əlaqədar ali təhsil müəssisəsinin (Azərbaycan Turizm və Menecment Universiteti - 2006) fəaliyyət göstərməyinə baxmayaraq, beynəlxalq standartlara cavab verən səriştəli kadrlara daha çox ehtiyac duyulur.

Ölkəmizdə turizm biznesinin sürətli inkişafına mənfi təsir edən məsələlərdən biri turistlərə göstərilən xidmət səviyyəsinin aşağı olmasından ibarətdir. Göstərilən xidmətlərin aşağı səviyyədə həyata keçirilməsi respublikaya gələn və yaxud gəlmək istəyən turistlərin sayını azaldır. İstirahətə gələnlərə göstərilən xidmətlərin səviyyəsinin düşük olması birbaşa olaraq rəqabətin aşağı olması ilə bağlıdır. Onu da qeyd etmək lazımdır ki, turizm sektoru inkişaf edən ölkələrdə bu sahədə fəaliyyət göstərən qurumlar, iş adamları, otellər, sanatoriya-kurort müəssisələri və s. göstərdikləri xidmətlərin səviyyəsinin artırılması nöqteyi-nəzərdən bir-biri ilə rəqabət aparırlar. Bu təcrübəni ölkə daxilində fəaliyyət göstərən turizm təşkilatları da tətbiq etməli və göstərdikləri xidmətlərin səviyyəsini beynəlxalq standartlara çatdırmalıdırlar.



Turizmdə meydana gələn problemlərdən biri Azərbaycana gəlmək istəyən turistlərə aviabiletlərin baha qiymətə satılmasıdır. Adətən, turistlər qiyməti bir qədər aşağı olan reyslərlə istirahət edəcəyi məkanlara getməyi üstün tuturlar. Bu səbəbdən də ölkəmizə gələnlərin sayı azalmaqla yanaşı, yolların açıldığı təqdirdə ölkədən gedən insanların sayında yaxın gələcəkdə artım müşahidə edilə bilər. Respublikada təşkil edilən beynəlxalq idman yarışmaları (Formula 1 avtomobil yarışları), musiqi festivalları (Avroviziya), sərgilər, kino festivalları və digər beynəlmiləl xarakterli tədbirlər turist axınının çoxalmasında önəmli rol oynaya bilər. Bunun üçün isə həm dövlətin, eləcə də iş adamlarının köməyi ilə ilin bütün fəsillərinə uyğun turizm infrastrukturu yaradılmalıdır.

Respublikamızda milli turizmin inkişafına neqativ təsir edən amillərdən biri də turizmin genişləndirilməsinə səbəb olan və bu sənayenin inkişafına güclü təkan verən reklam fəaliyyətidir. Ölkə ərazisində mövcud turizm obyektləri haqqında mediada və digər yazı-çap materialları, belə regionlar üzrə bukletlər, xəritələr və digər reklam vasitələri yetərli miqdarda deyildir. Turizm sənayesinin inkişaf etdirilməsi istiqamətində görülən tədbirlər və yeni tikilən obyektlərə dair informasiya xarakterli materiallar, demək olar nəzərə çarpmır. Turizmin inkişaf etdirilməsində xüsusi əhəmiyyətə malik olan tarixi abidələrimizi və turizmlə bağlı məşhur obyektlərimizi tərənnüm edən reklam vasitələri, turizm məhsulları turistlərin ziyarət edəcəyi bütün məkanlarda nümayiş etdirilməlidir.

***Turizm sənayesinin inkişafında əngəl yaradan və onun genişləndirilməsində mühüm rol oynayan məsələlərdən biri də turizm abidələrinin mühafizə edilməsidir. Ölkənin müvafiq orqanları tərəfindən turizm marşrutları üzrə mövcud abidələrin mühafizə tədbirləri gücləndirilməlidir. Bundan başqa, ölkə ərazisində turizmin cəlbediciliyinin yüksəldilməsinə səbəb olan tarixi abidələrimizin konservasiyası və bərpa olunması məsələləri ön plana çəkilməlidir.***

Ölkəmizin dünya turizm bazarında layiqli yer tutaraq tanınması və milli turizmin davamlı inkişaf etdirilməsi hazırda dövlətin prioritet məsələlərindəndir. Buna görə də beynəlxalq miqyasda əməkdaşlığın gücləndirilməsi, xarici ölkələrdə sərgilərin keçirilməsi, müxtəlif müasir texniki vasitələrdən və texnologiyalardan istifadə edərək turizm məkanlarının (məhsullarının) audiovizual materiallarının yayılması olduqca vacibdir.

Ölkəmizdə turizmin sahəsində yaranan problemlərin aradan qaldırılması bu sahədə canlanma yaratmaqla milli turizm sektorunun genişlənməsinə şərait yaradacaqdır. Turizm biznesinin mövcud potensiala uyğun inkişaf etdirilməsi və burada beynəlxalq standartlara söykənməklə xidmətlərin göstərilməsi müasir turizm sənayesinin rəqabət qabiliyyətini yüksəldəcəkdir. Beləliklə, turizm sənayesinin ölkəmizdə inkişaf perspektivlərinin və amillərinin tədqiq edilməsi aşağıdakı nəticələrə gəlməyə imkan yaradır:

*- ölkə iqtisadiyyatında qeyri-neft sektorunun aparıcı sahəsinə çevrilən turizm sənayesinin inkişaf etdirilməsi dövlətçiliyimizin gücləndirilməsinin prioritet istiqamətlərindəndir. Turizm sferasının inkişafı nəticəsində ölkə büdcəsinə mədaxil edilən gəlirlərin artırılması dövlətimizin və xalqımızın milli maraqlarına tamamilə uyğundur;*

*- turizm sənayesinin inkişaf etdirilməsi üzrə dövlətimizin siyasətinə uyğun olaraq müvafiq layihələr həyata keçirilməlidir. Qeyri-neft sektorunun aparıcı sahəsinə çevrilmiş turizm biznesinin inkişaf etdirilməsində dövlət və özəl strukturlarla birgə yerli özünüidarə orqanları ilə əlaqələrdən hərtərəfli istifadə olunması regionların inkişafında yaranan bir sıra problemləri aradan qaldırar;*

*- regionlarda turizmin daha da genişləndirilməsi məqsədilə turizm infrastrukturlarının və turizm məhsullarının yaradılmasında münbit şərait olmalıdır. Respublikada turizm potensialından rasional istifadə edilməsi ÜDM-in tərkibində bu sektorun xüsusi çəkisini artırmaqla məşğulluq problemlərinin aradan qaldırılmasını təmin edəcəkdir;*

*- turizmin müfəssəl inkişaf etdirilməsi məqsədilə xalqımızın tarixi və mədəni irsindən, təbii resurslardan səmərəli istifadə edilməsi və onların mühafizəsi təmin edilməlidir. Ölkəmizə gələn turistlərin sayının artırılması istiqamətində işlər görülməli və respublikamızın turizm potensialı müvəffəqiyyətlə təbliğ edilməklə onun cəlbediciliyi təmin olunmalıdır;*

*- turizmin inkişaf etdirilməsində sağlam rəqabət mühiti formalaşdırılmalı, bu sahədə fəaliyyət göstərən iş adamlarının maliyyə resurslarına əlçatanlığı təmin edilməli və rəqabətin məhdudlaşdırılmasına yol verilməməlidir. Azərbaycan turizminin qlobal turizm bazarındakı yeri təhlil olunmalı və onun rəqabət qabiliyyətinin gücləndirilməsi istiqamətində müvafiq fəaliyyətlər davamlı olaraq gerçəkləşdirilməlidir;*

*- turizm sənayesinin inkişafında rol oynayan subyektlərin maraqları qorunmaqla onların fəaliyyətinin davamlı monitorinqi aparılmalıdır;*

*- turizm sektorunda xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində mütəmadi tədbirlər görülməli, dünyadakı qabaqcıl təcrübə nəzərdə tutulmalı və sənaye birlikləri ilə təsərrüfat əməkdaşlığı gücləndirilməlidir. Turizm biznesində mövcud resurslardan səmərəli istifadə edilməsi və dövlət-sahibkarlıq əməkdaşlığının genişləndirilməsi iqtisadi potensialımızın gücləndirilməsində gözləntilərimizi qısa müddətdə doğruldacaqdır və s.*

**Əmirov İmran,**
**Sumqayıt Dövlət Universiteti,**
**Biznesin təşkili və menecment kafedrası, baş müəllim**

# Dövlət Neft Fondu AÇG yataqlar bloku və "Şahdəniz" yatağı üzrə gəlirləri açıqlayıb

AZƏRBAYCAN RESPUBLİKASI
DÖVLƏT NEFT FONDU

Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) bu ilin ilk 5 ayı ərzində "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar bloku və "Şahdəniz" yatağı üzrə gəlirlərini açıqlayıb.

Fonddan verilən məlumata görə, AÇG yatağından bu ilin əvvəlindən iyun ayının 1-i tarixinə 3 013 milyon ABŞ dolları, "Şahdəniz" yatağından (qaz və kondensat) isə ilin əvvəlindən 1 iyun tarixinə 935,754 milyon ABŞ dolları gəlir əldə olunub.

O cümlədən, "Şahdəniz" yatağı üzrə kondensatın satışından əldə olunan gəlirlər hesabat dövründə 197,763 milyon ABŞ dolları təşkil edib.

# Sahibkarlar beynəlxalq proqramla iştirak etməyə dəvət olunurlar



Azərbaycan istehsalçılarına məhsullarını Rusiyanın aparıcı pərakəndə satış şəbəkələrindən biri sayılan "X5 Group"un xüsusi rəflərində təqdim edilməsi təklif olunur.

AZPROMO-dan bildirilib ki, MDB-nin İqtisadi İnkişafı üzrə Biznes Mərkəzi Assosiasiyasının Rusiyanın aparıcı pərakəndə satış şəbəkələrindən biri olan "X5 Group" ilə imzaladığı malların rəflərə sadələşdirilmiş çıxışı hesabına keyfiyyətli məhsul çeşidinin artırılması haqqında razılaşmasına əsasən, assosiasiya MDB ölkələrindən olan məhsulların brendləşmiş rəflərini təşkil edir. Rəflər kassa zonasında, maksimum istehlakçı aktivliyi müşahidə olunan yerlərdə yerləşir. Brendləşmiş rəfdə məhsulların qalma müddəti 90 gündür. Həmin müddətin nəticələrinə görə, istehsalçı ilə pərakəndə satış şəbəkəsi arasında birbaşa müqavilə imzalanması barədə qərar qəbul olunacaq.

# 5 ayda 1,5 milyard ABŞ dolları dəyərində qeyri-neft məhsulları ixrac olunub

Cari ilin yanvar-may ayları ərzində Azərbaycanın ümumi ixracı 16,1 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə ixracı isə 1,5 milyard ABŞ dolları təşkil edib.

AZƏRTAC İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın iyun sayına istinadla xəbər verir ki, qeyri-neft sektoru üzrə ixrac 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 22,1 faiz artıb. 2023-cü ilin yanvar-may ayları ərzində yeyinti məhsulları üzrə ixrac 334,4 milyon ABŞ dollarına bərabər olub. 2023-cü ilin ilk 5 ayı ərzində spirtli və spirtsiz içkilərin ixracı 5,9 dəfə, şəkər ixracı 43,8 faiz, meyvə-tərəvəz ixracı isə 10,4 faiz artıb. 2023-cü ilin yanvar-may ayları ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 16,9 faiz artaraq 349,1 milyon ABŞ dolları təşkil edib.




Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 55,8 faiz artaraq 92,2 milyon ABŞ dolları təşkil edib. 2023-cü ilin may ayında qeyri-neft ixracı 278,2 milyon ABŞ dolları olub. Bu ilin may ayı ərzində yeyinti məhsulları üzrə ixrac 98,2 milyon ABŞ dollarına, qeyri-yeyinti məhsulları üzrə ixrac isə 180 milyon ABŞ dollarına bərabər olub.

# "Azərbaycanın işğaldan azad olunan ərazilərinə investisiya qoymağa hazırıq"

"Azərbaycan dövləti alternativ enerji mənbələrinin inkişafına böyük dəstək verir. Biz Azərbaycanda alternativ enerjinin inkişafına investisiya qoymağa hazırıq".

Bu fikri AZƏRTAC-a müsahibəsində "Ukrteplo" şirkətlər qrupunun sahibi İvan Nadein söyləyib.

"Şirkətimiz alternativ enerji sahəsində on ildən çox təcrübəyə malikdir. Bütün növ alternativ enerjilərin bərpası işinə investisiya qoyuruq. Bu sahədə investor və operator xidmətlərimiz var. Ukraynada və Moldovada layihələrimiz var. Hazırda Moldova və Ukraynada gərginlik mövcuddur. Biz Azərbaycanda alternativ enerjinin bərpası sahəsində layihələrə investisiya qoymağa hazırıq. Azərbaycan bu istiqamətdə düzgün yol götürüb", - deyə İvan Nadein əlavə edib.

Onun sözlərinə görə, Ukraynada hələ müharibədən əvvəl şirkətin Azərbaycanın alternativ enerji bazarında birgə layihələrin həyata keçirilməsinə dair planı olub. Hazırda bu istiqamətdə müzakirələr davam etdirilir.

ELÇİN — 80

# Elçinin kitab haqqında fikirləri və “Ədəbi düşüncələri”ndən

**Kitab doğmalığı**

Mən kitab rəflərimdə düzülmüş kitabların hamısını bir-bir tanıyıram və məndə belə bir təəssürat var ki, o kitabların da hər biri məni tanıyır.

**Kitab küskünlüyü**

Son zamanlar deyirlər ki, bizdə kitaba maraq azalıb, həvəs itib. Mənə elə gəlir ki, əksinədir. Kitab özü bizdən küsüb.
Kitab və illüziyalar aləmi
Anatol Frans yazırdı ki, “xoşbəxtliyin resepti illüziyasız yaşamaqdır”. Kitab da gərək illüziyalar yaratmasın. İllüziyalar yaradan kitab bədbəxtlik carçısıdır.

**Kitab və oxucu**

Bəzən kitab oxucunu zorlayır. Bəzən də əksinə olur.

**Beş böyük rus romanı**

Mənim üçün rus ədəbiyyatının ən böyük romanı “Hərb və sülh”dür. Mən bu cümləni yazdım və fikrimdə beş böyük rus romanı canlandı: “Hərb və sülh”, “Oblomov”, “Sakit Don”, “Ustad və Marqarita”, “Peterburq”. Qəribədir (bəlkə burada qəribə bir şey yoxdur?!), mənim bu siyahımda Dostoyevski yoxdur.

**Ən böyük kitab**

İlahi kitablardan sonra, bəşərin yaratdığı ən böyük kitab “Don Kixot”dur. Yer kürəsində kimlər yaşayır, necə yaşayır, insan nə olan şeydir, xislət nələrə qadirdir, həyatın mənası nədir, sevinc nədir, kədər nə, məhəbbət nə olan şeydir, bəs riya, fariseylik, sədaqət, qəhrəmanlıq, alicənablıq və sair və ilaxır. Başqa bir sivilizasiyanın bu və minlərlə (!) bu kimi suallarına ən dəqiq cavabı “Don Kixot” verə bilər.

**Sabirin dahiliyi**

Sabirin dahiliyi yalnız onda deyil ki, köhnə formaya yeni mövzu və məzmun gətirdi (bu, öz yerində!), əsas ondadır ki, mollaxana təhsili görmüş və müəllimliklə bərabər, primitiv şəkildə sabun bişirib satan bu adam üçün “Əcnəbilər seyrə balonlarla çıxır, Biz hələ avtomobil minməyiriz” psixologiyası son dərəcə doğma idi, içindən qopub gələn mənəvi ehtiyacın ifadəsi idi, onun istedadının tərkib hissəsini təşkil edirdi.

**Dahiyanə sadəlik**

Böyük məhəbbət şairləri var, məhəbbət haqqında bu qədər yazılıb, amma naməlum bir müəllifin (xalqın!) dediyini:

***“Küçələrə su səpmişəm,***
***Yar gələndə toz olmasın”,***

- kim deyib? Hər halda mən belə bir dahiyanə sadəliyə, səmimiliyə yazılı ədəbiyyatda rast gəlməmişəm.

**“Ağ gəmi”ni oxuyandan sonra**

Çingiz Aytmatovun “Ağ gəmi” povestini oxudum. Çingiz “Cəmilə”ni yazanda Azərbaycanda onun ədəbi nəslindən olan və ondan daha yüksək bədiiliklə, ondan daha dərinliklə yazan yazıçılar var idi. Ancaq Çingiz əsərdən-əsərə dərinlərə getdi, bizimkilər isə əsərdən-əsərə üzə qalxmağa başladılar. Mən səbəbini tapa bilmirəm.

**Mənim hekayə antologiyam**

Bu gün günorta Yazıçılar İttifaqında partiya iclası gedirdi və mən də - tamam başqa bir aləmdə idim. Fikrimdə hər yazıçıdan bir hekayə götürmək şərtilə “Azərbaycan hekayə antologiyası” tərtib edirdim:

| | |
|---|---|
| *Füzuli* | *“Şikayətnamə”* |
| *Mirzə Fətələli Axundov* | *“Aldanmış kəvakib”* |
| *Cəlil Məmmədquluzadə* | *“Poçt qutusu”* |
| *Əbdürrəhim bəy Haqverdiyev* | *“Bomba”* |
| *Süleyman Sani Axundov* | *“Qaraca qız”* |
| *Abdulla Şaiq* | *“Məktub yetişmədi”* |
| *Süleyman Rəhimov* | *“Su ərizəsi”* |
| *Mehdi Hüseyn* | *“Rəqiblər”* |
| *İlyas Əfəndiyev* | *“Qırçı və qızıl gül”* |
| *İsa Hüseynov* | *“Plyajda”* |
| *Salam Qədirzadə* | *“Xəzan yarpaqları”* |
| *Anar* | *“Keçən ilin son gecəsi”* |



| | |
|---|---|
| *Yusif Səmədoğlu* | *“Foto “Fantaziya”* |
| ***Və nəhayət:*** | |
| *Elçin* | *“Parisdə avtomobil qəzası”* |

(Dünən gecə, yəni avqustun 17-də gözəl Şüvəlanda bu hekayənin nöqtəsini qoydum.)
Əlbəttə, bu hekayələrdən biri nisbətən yüksək səviyyədədir, o birisi nisbətən az, amma elə bilirəm ki, bunlar bir yerdə Azərbaycan hekayəsi barədə təsəvvür yaradır.

**Ağabəyim Ağanın beyti**

Bu gün 44 yaşım tamam olur və səhər yuxudan oyandığım dəqiqədən Ağabəyim Ağanın məşhur beyti fikrimdə dolaşır:

***Əfsus ki, yarım gecə gəldi, gecə getdi,***
***Heç bilmədim ömrüm necə gəldi, necə getdi?...***

Atam deyir ki, Cəlil dayı da (İlyas Əfəndiyevin dayısı, görkəmli teatr xadimi Cəlil bəy Bağdadbəyov) tez-tez bu beyti yadına salırmış... Bu iki misrada cəmi doqquz sözdən istifadə olunub (qalanı təkrardır) və ədəbiyyat dediyimiz sirri-xuda da elə burasındadır: bu doqquz söz səni əfsus və heyhatlarla dolu elə bir qəmli-qüssəli hisslər aləminə çəkib aparır ki, doqquz yüz, hətta doqquz min söz də bunu ifadə etməkdə acizdir. Və bu yerdə ədəbiyyatla zaman qəribə bağlarla (estetik bağlarla!) bir-birinə bağlıdır: on il bundan əvvəl – mənim 34 yaşım tamam olanda yəqin ki, bu hisslər aləmi mənim üçün bir o qədər dərin deyildi, on il bundan sonra da – Allah bu ömrü mənə qismət etsə - olsun ki, bu iki misranın gözəlliyi mənim üçün daha artıq olacaq (bədiiliyi artacaq!?) və o hisslər aləmi də dəyişəcək (dərinləşəcək!?).

**Osman Sarıvəllinin iki misrası**

On-on beş il bundan qabaq – onda universitetin tələbəsi idim, qarışqaların həyatı barədə nə qədər elmi, elmi-kütləvi ədəbiyyat var idisə, tapıb oxuyurdum və bu qarışqa həyatı mənim üçün dünyanın qəribə möcüzələrindən biri idi, amma bu da bir qəribə əhvalatdır! Mən hər dəfə qarışqa görəndə, yadıma o elmi ədəbiyyat yox, Osman Sarıvəllinin iki misrası düşür:

***Döydü yağış məni, döydü qar məni,***
***Bir qarışqa minsəm, aparar məni...***

Özü də bu iki misra, əslində, qarışqaya həsr olunmayıb, dünyanın min bir üzünü görən, şaxtasına-boranına düşən insana həsr olunub, amma burada mənim üçün qarışqanın (hambal qarışqanın! Zəhmətkeşin!) gözəl bir obrazı var.

**Çexov mənim üçün kimdir?**

Çexov mənim üçün ilk növbədə dahi dramaturqdur və yalnız bundan sonra böyük hekayəçi.

**Mirzə Fətəli, Mirzə Cəlil və Üzeyir bəy**

İndicə M.F.Axundov haqqında essenin son nöqtəsini qoydum.
XIX-XX əsr Azərbaycan mədəniyyəti tarixində mühüm (və bədii estetik baxımdan çox maraqlı) bir cəhət üç böyük sənətkar - M.F.Axundov, C.Məmmədquluzadə və Ü.Hacıbəyov üçün səciyyəvidir (deməli mədəniyyət tariximiz, ədəbiyyatımız üçün səciyyəvi bir hadisədir!).
Mirzə Fətəli altı komediyası ilə keçən əsrin ortalarına qədər Azərbaycan xalqının (qədim və zəngin ədəbiyyata malik bir xalqın) tanımadığı bir janrı – dramaturgiyanı həmin xalqın ədəbiyyatının milli faktoruna çevirdi.
Mirzə Cəlilə qədər Azərbaycan hekayəsi mövcud idi (Füzulinin “Şikayətnamə”si, Mirzə Fətəlinin “Aldanmış Kəvakib”i – hərçənd tənqidimiz bəzən bu əsərlərin janrını başqa cürə müəyyənləşdirir – və s.), amma bir janr kimi formalaşmamışdı və Mirzə Cəlil “Poçt qutusu”yla, “Qurbanəli bəy”lə, “Pirverdinin xoruzuy”la, “Saqqallı uşaq”la nəinki bu janrı formalaşdırdı, onu Azərbaycan ədəbiyyatının, hərgah belə demək mümkünsə, milli janrına çevirdi.
Və bu sənətkarların istedadı sayəsində xalq bu yad (!) janrları dərhal qəbul etdi və nəinki qəbul etdi, Hacı Qara, yaxud Qurbanəli bəy, yaxud Məşədi İbad – Molla Nəsrəddin və ya Bəhlul Danəndə kimi xalqın bədii qəhrəmanlarına çevrildi.

**Sənətkar ölmür**

Adətən deyirlər: sənətkar ölmür. Təbii ki, bu, məcazi mənada deyilən bir sözdür.
Ancaq kitabla bağlı bu sözdə çox böyük əyanilik var: əgər mən bu gecə olduğu kimi, yenə kitabı götürüb Molla Nəsrəddinin felyetonlarını oxuyuramsa, əslində bu, o deməkdir ki, Mirzə Cəlil bu gecə mənim evimə gəlib və mən onunla söhbət edirəm.

**Herodat və bu gün**

Heradotu oxuduqca fikirləşirəm ki, təkcə müasir dünyanı yox, ümumiyyətlə, xisləti hiss və dərk etmək üçün, tarixi bilmək lazımdır.

**Şekspir haqqında**

Şekspir olmasaydı, ingilis ədəbiyyatı buz bağlayardı.

**“Mənfi qəhrəman” müsbət işlər görür**

Hacı Qara da, Məşədi İbad da, Qurbanəli bəy də “mənfi qəhrəman”lardır.
Amma bir anlıq təsəvvür edək ki, Azərbaycan ədəbiyyatında nə Hacı Qara var, nə Məşədi İbad var, nə də Qurbanəli bəy. Gör o zaman Azərbaycan mənəviyyatı nə qədər kasıblayır.

**Kitab cəmiyyətin ifadəsidir**

Bu gün cəmiyyət başdan-başa siyasiləşib və o adam ki, on il bundan əvvəl yatsa, yuxusuna gətirməzdi, indi nadan siyasi mülahizələr yürüdür. Və bu gün kitablar da siyasiləşib. Ona görə də onları oxumaq mümkün deyil.

**Özümlə söhbət**

*- Dünya ədəbiyyatında ən böyük pərişanlığı kim keçirib?*
*- Annanın ölümündən sonra Vronski.*
*- Axı, Anna öləndən sonra, demək olar ki, roman bitir.*
*- Nə olsun?*

**Poeziya haqqında**

Poeziyaya qiymət vermək üçün, yalnız dil bilmək (həm də mükəmməl bilmək!) kifayət deyil.
Yalnız sözləri başa düşməklə poeziyaya qiymət vermək olmaz.
Poeziyanı gərək hiss edəsən, onu misralarla birlikdə yaşayasan.
Bunun üçün isə, o dillə doğulmaq lazımdır.
Poeziya ilə insan arasında genetik doğmalıq olmalıdır.

**Yazıq Koroğlu, bədbəxt Qaçaq Nəbi**

Elə yazıçılar var ki, xalqın məişətini, etnoqrafik detalları kitablardan öyrəniblər və onların yazılarını oxuyanda məndə elə bir təəssürat yaranır ki, elə bil, Koroğlu boynuna qalstuk taxıb,yaxud Qaçaq Nəbi başına şlyapa qoyub...

**Özümlə söhbət**

Uzun-uzadı əsrlərdən bəri Azərbaycan ədəbiyyatında sənin üçün ən faciəvi qəhrəman kimdir?
- Sabirin lirik qəhrəmanı.

**Ədəbi yaddaş haqqında**

Ədəbi yaddaş çox etibarsız bir şeydir. Rinq Lardner mənim üçün XX əsr Amerika ədəbiyyatında Kolduelldən sonra ən böyük novellaçıdır.
Ancaq bu gün Lardneri ancaq “ədəbiyyat xəstələri” xatırlayır.
Lardnerin novellaları sərbəst, azad, başdan-başa gözəl bir iddiasızlıq nümunəsidir. Ancaq iddiasız olmaq o demək deyil ki, unudulasan...

**Mənim İdilliyam**

Mənim bir xəyal dünyam var. Gecələr yerimə girib yuxum qaçanda, yaxud gündüzlər hansısa mənasız bir iclasda olanda (!) mən “Haydı!” deyib o dünyama yollanıram.
O dünyada tərtəmiz bir dağ çayı şırhaşır axır. O dünyada payız təzəcə gəlib, sarısı hələ adda-buddadı, hələ xəzəl də seyrəkdi və üzü qışa gedən o ağaclar istisini də hələ itirməmiş günün altında qəribə (XX əsrdən çox uzaq və mənim gündəlik həyatımın telefon, maşın, televizor, diktafon, iclas, çıxış... kimi atributlarına tərs mütənasib) bir hiss-həyəcanla dolu kölgəlik salıb.
Və mən kölgəlikdə oturub qələmlə (makinada, ya diktafonda yox!) “Anna Karenina”nı Azərbaycan dilinə tərcümə edirəm...

**Ali üçlük**

Yazıçı, məlum məsələdir ki, özünü ifadə edir. Əgər söhbət istedadlı yazıçıdan gedirsə, o, özü ilə bərabər, xalqını ifadə edir.
Böyük yazıçılar bəşəri ifadə edir.
Bu mənada mənim üçün ən böyük bəşəri yazıçılar:
Qoca Tolstoy.
Şekspir.
Servantes.

**Tanışlıq**

Məndə elə bir hissiyyat var ki, kitabxanamdakı bəzi kitablar məni tanıyır.

**İki dünya**

Fikirləşirəm ki, bizim bu dünyamızda əslində iki dünya var:
Ölü dünya və canlı dünya.
Və iki tip də yazıçı var: ölü dünyadan yazan yazıçılar və canlıdünyadan yazan yazıçılar.

***“İnsanlıq komediyası”***
***“Min bir gecə”dirmi?***

Balzak yazırdı ki, - “Mənim romanlarım Qərbin “Min bir gecə”sidir”.
Güman edirəm ki, Balzak yanılırdı.
“Min bir gecə”nin bünövrəsində bir sevinc, həyatdan ləzzət almaq şövqü gizlənib.
Balzak yaradıcılığının bünövrəsində isə mənim üçün aşkar bir kədər var.

**Ədəbi məmulat haqqında**

Bəzi kitablar əxlaqsız qadınlar kimidir, əldən-ələ keçir.

**Roman haqqında**

Elə romanlar var ki, elə bil, anadan ölü doğulur.

**Oxumaq xoşbəxtliyi**

Sovet İttifaqının tar-mar olması mənim üçün bir də ona görə əlamətdardır ki, istədiyim kitabı açıq şəkildə axtarıb tapa və oxuya bilirəm.

**Çirkli assosiasiya**

Kitab var ki, gözəl bir qadına bənzəyir. Ancaq bir-iki səhifədən sonra görürsən ki, onun alt paltarı çirklidir...

**Bəybala Ələsgərov,**
**tarix elmləri doktoru**

# "HEYDƏR ƏLİYEV - MİLLİ DÖVLƏTÇİLİYİMİZİN XİLASKARI"

2 iyun 2023-cü il tarixində Sabunçu Rayon İcra Hakimiyyəti və Sabunçu rayonu 28 nömrəli tam orta məktəbin təşkilatçılığı ilə Ümumimilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi və 2023-cü il - “Heydər Əliyev ili” ilə əlaqədar “Milli dövlətçiliyimizin xilaskarı” mövzusunda tədbir keçirilib. Tədbirdə Sabunçu Rayon İcra Hakimiyyəti başçısının müavini Rəna Fərəcova, iqtisad elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikasının Milli Məclisinin deputatı, akademik Ziyad Əliabbas oğlu Səmədzadə, Azərbaycanın muğam ifaçısı, Xalq artisti Könül Xasıyeva, rayon təhsil müəssisələrinin rəhbərləri, şagirdlər və rayon ictimaiyyətinin digər nümayəndələri iştirak ediblər.







*Qarabağın görkəmli simaları*



# Xəlil Məmmədov (1916-1989)

***Azərbaycan-sovet hərbi və dövlət xadimi, Sovet İttifaqı Qəhrəmanı (1945), Azərbaycan SSR daxili işlər (1960–1965) və ictimai asayişi mühafizə naziri (1962–1965) Xəlil Məmmədov 1916-cı ildə Şuşa şəhərində anadan olmuşdur.***



Sənaye Texnikumunu bitirdikdən sonra 1938-ci ildə Şuşa RHK-dan ordu sıralarına çağırılmışdır. İkinci Dünya müharibəsi başlayanda öncə Qafqaz cəbhəsinə göndərilib. Müharibə illərində X.Məmmədov sıravi tankçılıqdan mayor rütbəsinə, tank taboru komandiri vəzifəsinə qədər yüksəlib. ***Qısa müddət ərzində döyüş şəraitində hərb sənətinin incəliklərini mənimsəyən qorxmaz azərbaycanlı 1942-ci ilin dekabr ayında göstərdiyi qəhrəmanlığa görə "Qırmızı ulduz" ordeni ilə təltif edilib. Hərbi əməliyyatlardakı uğurlarına görə komandanlığın diqqət mərkəzində olan tabor komandiri bir il keçməmiş ikinci dəfə "Qırmızı ulduz" ordeni ilə təltif olunub. Növbəti dəfə X.Məmmədovun taboru döyüşlərin daha şiddətli keçdiyi Cənub-Qərb cəbhəsinə göndərilib. Komandanlıq taborun qarşısında alman qoşunları tərəfindən mühasirəyə alınmış Zaporojye şəhərinin mühasirə həlqəsinin cənub tərəfdən dağıdılması tapşırığını qoyub. Bu tapşırığı uğurla yerinə yetirən Xəlil Məmmədov "Aleksandr Nevski" ordeni ilə təltif edilib.***

Ukraynanın işğaldan azad edilməsində ən ağır döyüşlərdə iştirak edən X.Məmmədovun sonrakı döyüş yolları Macarıstan, Yuqoslaviya, Çexoslovakiya, Rumıniyadan keçib. X.Məmmədov Rumıniyanın Tırqu Frumos şəhərinin işğalçılardan azad edilməsində xüsusi qəhrəmanlıq göstərib. Onun taboru sonra Macarıstanda qərarlaşıb. Növbəti əməliyyatlara hazırlaşanda səhra poçtalyonu ona xüsusi zərf təqdim edib. Zərfin "məxfi" möhürlü olmamasını görən komandir məktubu müavininə yönləndirib. Zərfdə isə SSRİ Ali Sovetinin X.Məmmədova Sovet İttifaqı Qəhrəmanı adı verilməsi ilə bağlı fərmanı olub.

Döyüş yoldaşları onu "məğlubedilməz Məmmədov", "amansız döyüşçü", "gecə hücumlarının ustası" adlandırıblar. İkinci Dünya müharibəsindən sonra ehtiyatda olan mayor X.Məmmədov partiya orqanlarında çalışıb. O, 1946-cı ildə Bakının Əzizbəyov rayon Partiya Komitəsinin 1-ci katibi olub. 1955-ci ildə Sov.İKP MK yanında Ali Partiya Məktəbini bitirib.

X.Məmmədov 1957-ci ildə əvvəlcə daxili işlər nazirinin müavini, daha sonra 1-ci müavin, 1960-cı ildə isə daxili işlər naziri vəzifəsinə təyin edilib, ona general-mayor rütbəsi verilib. 1965-cı ildən X.Məmmədov Nazirlər Sovetinin sovet orqanları şöbəsinə rəhbərlik edib, 1971-1974-cü illərdə isə Azərbaycan İdman və Bədən Tərbiyəsi Dövlət Komitəsinin sədri vəzifəsində işləyib.

***21 fevral 1989-cu ildə vəfat etmişdir. Bakı şəhərindəki II Fəxri Xiyabanda dəfn edilmişdir.***

# Mərkəzi Gömrük Hospitalı Gəncədə 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr edilmiş tibbi sosial aksiyalar keçirib

***Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalı tərəfindən Gəncə şəhərində yerləşən Gəncə Uşaq Evində və "SOS Uşaq Kəndləri - Azərbaycan" Assosiasiyasının Gəncə şəhər filialında valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr edilmiş tibbi sosial aksiyalar keçirilib. Aksiyalarda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini t.ü.f.d., dosent İsmayıl Əfəndiyev, Qərb Ərazi Baş Gömrük İdarəsinin nümayəndələri, Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev, Gəncə Uşaq Evinin direktoru Nazilə İsmayılova, "SOS Uşaq Kəndləri - Azərbaycan" Assosiasiyasının Gəncə şəhər filialının direktoru Tale Cəfərov, Mərkəzi Gömrük Hospitalının tibb heyəti, "SOS Uşaq Kəndləri - Azərbaycan" Assosiasiyasının Gəncə şəhər filialının əsas qayğı işçiləri və sakinləri iştirak ediblər.***





Hər iki tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini t.ü.f.d., dosent İsmayıl Əfəndiyev uşaqları 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə təbrik edib, ən xoş arzularını bildirib. İsmayıl Əfəndiyev Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin təşkilatçılığı ilə keçirilən tibbi sosial aksiyalar barədə danışaraq, bu tədbirlərin davamlı olacağını qeyd edib.

Gəncə Uşaq Evinin direktoru Nazilə İsmayılova da Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalının rəhbərliyinə, tibbi sosial aksiyada iştirak edən tibb işçilərinə təşəkkürünü bildirib.

"SOS Uşaq Kəndləri - Azərbaycan" Assosiasiyasının Gəncə şəhər filialının direktoru Tale Cəfərov Gəncədə yerləşən "SOS Uşaq Kəndləri - Azərbaycan" Assosiasiyasının Gəncə şəhər filialı haqqında məlumat verib. O, ümummilli lider Heydər Əliyevin uşaqlara diqqət və qayğısından, uşaqların rifahına yönəlmiş qərarlarından və təşəbbüslərindən danışıb. O, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısının müavini Adil Tağıyev bu sosial tibbi aksiyanın keçirilməsinə göstərdikləri dəstəyə görə başda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov olmaqla, Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., Əməkdar həkim, tibb xidməti general-mayoru Ceyhun Məmmədova, Mərkəzi Gömrük Hospitalının həkimlərinə minnətdarlığını bildirib.

Gəncə Uşaq Evinin direktoqeyd edib ki, "SOS Uşaq Kəndləri - Azərbaycan" Assosiasiyasının Gəncə şəhər filialı da məhz Heydər Əliyevin təşəbbüsü ilə 2006-cı ildə uşaqların istifadəsinə verilib. Hazırda burada 4 əsas və 1 neçə yardımçı layihə olmaqla 70-dən çox uşağa alternativ qayğı göstərilir.

Tədbirlərdə Gəncə Uşaq Evinin və "SOS Uşaq Kəndləri - Azərbaycan" Assosiasiyasının Gəncə şəhər filialının sakinləri bədii kompozisiya nümayiş etdiriblər.

Hər iki sosial tibbi aksiyadan sonra Tibbi Xidmət İdarəsinin rəis müavini İsmayıl Əfəndiyev narkotik vasitələrin və psixotrop maddələrin ziyanı barədə, Mərkəzi Gömrük Hospitalının Təcili Tibbi Yardım şöbəsinin rəisi, təcili yardım həkimi Nərgiz Kərimova ilk yardım qaydaları barədə, Mama-ginekologiya şöbəsinin rəisi Təranə Bayramova qızlar üçün cinsi inkişaf və reproduktiv sağlamlıq barədə, uşaq cərrahı Toğrul Piriyev oğlanlar üçün cinsi inkişaf və reproduktiv sağlamlıq barədə, Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi Tədris Mərkəzinin mütəxəssisi Şəhla Mirzəzadə sağlam həyat tərzinin təbliği və tütün istifadəsi ilə bağlı müəllimlər, tərbiyəçilər, əsas qayğı işçiləri və uşaqlar üçün təlimlər keçiriblər.

Mərkəzi Gömrük Hospitalının həkimləri Gəncə Uşaq Evində və "SOS Uşaq Kəndləri - Azərbaycan" Assosiasiyasının Gəncə şəhər filialında valideyn himayəsindən məhrum olmuş 200-ə yaxın uşağı kardioloji, oftalmoloji, travmatoloji, terapevtik və nervoloji müayinə ediblər, məsləhətlərini veriblər və hər birinə kitab hədiyyə ediblər.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# Azərbaycanda ticarət əməliyyatlarının sürətlə rəqəmsallaşması özü ilə yeni tendensiyalar və imkanlar gətirir

"Rəqəmsallaşmadan ən çox təsirlənən sektorlardan biri də elektron ticarət sahəsidir."

AZƏRTAC xəbər verir ki, bunu İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) operatoru olduğu "Azexport.az" portalının rəhbəri Ayxan Qədəşov deyib.

Onun sözlərinə görə, ötən il ölkədə elektron ticarət vasitəsilə aparılan əməliyyatların sayı 2021-ci il ilə müqayisədə 2,4 dəfə, həcmi isə 2,5 dəfə artıb: "Həmçinin 2022-ci ildə internet bankçılıq xidmətləri vasitəsilə həyata keçirilən əməliyyatların həcmi 2021-ci illə müqayisədə 50 faiz artıb. Vətəndaşların onlayn mağazalar və rəqəmsal ödəniş sistemlərinə olan marağı yeni biznes imkanlarının formalaşmasına da şərait yaradıb. Rəqəmsal platformaların yaranması xidmət sektorunda ciddi dəyişikliklərə yol açıb. Buna misal olaraq qida çatdırılması, onlayn taksi sifarişi və ya beynəlxalq poçt daşıma xidməti kimi yeni bizneslərin daha da artmasını vurğulaya bilərik".

"Statistik məlumatlar da rəqəmsal imkanlardan istifadənin sürətlə artdığını göstərir. Belə ki, 2022-ci ildə ölkə daxilində ödəniş kartları ilə aparılan nağdsız ödənişlər 2021-ci illə müqayisədə 11,4 faiz artaraq 43,2 faizə bərabər olub. Rəqəmsallaşma marketinq sahəsinə də təsirsiz ötüşməyib. Şirkətlər məhsul və xidmətlərini tanıtmaq üçün onlayn reklam, sosial media kimi rəqəmsal marketinq strategiyalarından getdikcə daha çox istifadə edirlər. Bu, onlara daha geniş auditoriyaya çatmağa və marketinq strategiyasının effektivliyini artırmağa imkan verir.

Rəqəmsallaşma Azərbaycanın maliyyə sektoruna da yeni imkanlar gətirib. Belə ki, ödəniş sistemləri və ya investisiyaların yatırılması kimi rəqəmsal maliyyə xidmətləri təklif edən "fintech" startapların sayında da artım müşahidə olunur", - deyə A.Qədəşov qeyd edib.

# "Apple" iOS 17-ni təqdim edib



"Apple" şirkəti WWDC 2023 sərgisində öz cihazları üçün əməliyyat sistemlərinin yeni versiyalarını təqdim edib.

"Report"un xəbərinə görə, onlayn təqdimat korporasiyanın saytında yerləşdirilib.

Şirkətin top menecerləri "iPhone" üçün yeni əməliyyat sistemi olan iOS 17-ni nümayiş etdiriblər. Yeni versiyada istifadəçi zəng ekranının necə görünəcəyini fərdiləşdirə bilər. Bundan əlavə, sistem qəbul edilən mesajların şifrəsini aça bilər. "iMessage", həmçinin səsli mesajların transkripsiyasını, stikerləri və geolokasiyanın göndərilməsini də əhatə edəcək.

Sistemin yeni versiyasında "Apple" "AirDrop" məlumat ötürmə sisteminin işini yenidən işləyəcək.

Bundan əlavə, "iPadOS"un yeni versiyasında keçən il iPhone-da tətbiq edildiyi kimi, ekran kilidi parametri əlavə olunacaq. "Apple" planşetləri, həmçinin mətn daxil edə biləcəyiniz sahələri avtomatik tanıyaraq PDF sənədləri ilə işləməyi öyrənəcəklər.

# Veb-brauzerlərdən təhlükəsiz istifadə qaydaları

Veb-brauzerlərdən istifadə zamanı bir sıra qaydalara əməl etməyiniz tövsiyə olunur.

AZƏRTAC Elektron Təhlükəsizlik Xidmətinin məlumatına istinadən xəbər verir ki, təhlükəsizlikdən əmin olmaq üçün sadalananlara xüsusi diqqət yetirin:

**- Ünvan xanasında "https" və yaxud kilid işarəsi qeyd olunmayan saytlara daxil olmaqdan çəkinin;**
**- "Pop-up blocking" funksiyasını aktivləşdirin;**
**- Veb-brauzeri bağlamadan öncə onlayn hesablarınızdan çıxış etdiyinizdən əmin olun;**
**- Brauzerin keş yaddaşını tez-tez təmizləyin;**
**- Veb-brauzeri ən son versiyaya yeniləyin.**






**Azəri Light və Brent markalı neftin bir barelinin 1-6 iyun tarixlərində birja qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert Maqsud Quliyev**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500